

Sankt-Peterburqun Konstantin sarayında keçirilən G20 zirvə görüşünün açılışdan əvvəl Rəcəb Tayyib Ərdoğan və Fransua Ollandla bir araya gəlib.

Hər iki lider sammitdə müzakirəsi gözlənilən Suriya məsələsi barədə fikir mübadiləsi aparıblar. Görüş haqqında ətraflı məlumat verilməsə də, müzakirədən sonra mətbuataaçıqlamasında Baş nazir Ərdoğan Suriya mövzusunda beynəlxalq ictimayyətin məsuliyyətini ifadə edib.

Qeyd edək ki, G20 zirvə görüşündə qlobal iqtisadiyyat və bunun geniş miqyas almasının müzakirəsi nəzərdə tutulsa da, Yaxın Şərq böhranı gündəmə çıxıb. Hətta analitiklər Putinin ABŞ-ın Birləşmiş Millətlər Təşkilatının razılığı olmadan Suriyanı vuracağı halda belə bu ölkəyə silah yardımı edəcəyini bildirirlər. G20 zirvə toplantısının yaxın tarixin ən gərgin görüşü olacağı da analitiklərin verdikləri şərhlərdə öz əksini tapır.